## “Otuz Milyon Söz”ə dair

“Saskindin baxışı ilhamverici, metodlarını həyata keçirmək təəccüblü dərəcədə sadədir. Nəticələrinin uşaqları stabil, empatiyalı insanlar kimi yetişdirdiyi sübut olunub. Saskind uşaqlarla söhbətin mühüm faydaları haqqında öyrədici və maraqlı faktlar təqdim edir”.

*“Kirkus Reviews”*

“Övladımızın nevroloji inkişafında şəxsi rolumuzu dərk etmək, qarşılıqlı əlaqəmizin keyfiyyətinin uşaqların maraq duyğusuna və sağlamlığına təsir edə bilməsini bilmək hər birimizə necə də böyük bir səlahiyyət verir. Həkim Saskindin araşdırmasının praktik istifadəsi hədsizdir; bir ata və uşağının erkən inkişafına əmək sərf edən (“mətin”) biri kimi bu araşdırmanın bizi haralara apara biləcəyini görmək üçün çox həyəcanlanıram”.

*“Steve Nash Foundation”un prezidenti və iki dəfə Milli Basketbol Assosiasiyasının ən dəyərli oyunçusu seçilmiş Stiv Neş*

“Çıxış yolu və ümid qapıları açdığı üçün Deyna Saskində təşəkkür edirəm. Amerikanın iki əsas resursundan istifadə ölkəmizdə böyüməkdə olan sosial bərabərsizliyə cavab ola bilər: uşaqlar və onların valideynləri. Bu ölkənin və burada yetişəcək uşaqların qayğısını çəkiriksə, həkim Saskindin məsləhətlərinə əməl etməliyik”.

*“Abriendo Puertas/Opening Doors”un banisi və milli müdiri Sandra Qutierrez*

“Koxlear cərrahi təcrübəsinə əsaslanan, elmi-sosial araşdırmadan irəli gələn və uşaqlara, ailələrə olan dərin bağlılıqdan ilhamlanan bu kitab hamımıza körpələrlə və uşaqlarla bol, xoş, mənalı ünsiyyətin əhəmiyyətini başa düşməyə yardım edir. Tanışlarınıza

bu kitabı oxumalarını tövsiyə edin. Hər bir evdə və icmada gələcək nəsillərin dil mühitini birlikdə zənginləşdirə bilərik. Bu kitab əsl incidir!”

*Harvard Universitetində “Achievement Gap Initiative”in fakültə müdiri Ronald F.Ferquson*

“Həkim Deyna Saskind uşaqların inkişafında söhbətin gücündən birbaşa ön xətdən söz açır. Mütaliəsi asan, hər səhifəsində heyrətamiz bilik olan kitab sizdə valideyn olmaq barədə fərqli düşüncə formalaşdırmayacaq, həm də uşaqlarınızın bacarıqları çərçivəsində ən yaxşı adamlara çevrilmələrinə yardım etmək üçün vasitələr təqdim edəcək”.

*Çikaqo Universitetinin professoru, “Choke” və “How the Body Knows Its Mind” kitablarının müəllifi Sian Beylok*

“Saskind valideynlərin nə üçün körpələri ilə söhbət etməli olduqlarını və bəzi ünsiyyət formalarının digərlərinə nisbətən niyə daha mühüm olduğunu aydın və sanballı şəkildə izah edir. “Otuz milyon söz” hər bir valideyn, müəllim və təhsil siyasəti işçisinin mütaliə etməli olduğu kitablar siyahısındadır”.

*Nyu-York Universitetinin dosenti və “Drank Tank Pink”in müəllifi Adam Alter*

“Uşaqların qayğısını çəkən, bu ölkənin gələcəyinin qeydinə qalan hər kəs bu kitabı oxumalıdır”.

*Erikson İnstitutunda B.Harris professoru Barbara Brouman*

“Çiçəklənən, uğurlu övladlar yetişdirmək üçün hər bir valideyndə olan güc barədə ehtiras dolu özəl açıqlama”.

*“Ounce of prevention Fund”ın prezidenti Dayana Mendli Rauner*

"İnqilaba hazırlaşın. Bu kitab sizi ağladacaq, güldürəcək və həyatda hər kəsə uğur qazanmaq şansı vermək üçün nə etməli olduğunuz barədə dərindən düşündürəcək. Bir alim kimi heyran qaldım, bir müəllim kimi gözlərim qamaşdı və bir valideyn kimi kitabın müəllifinə minnətdar oldum. Kitabı əlinizə götürdükdə, gərək, bir neçə saat ayırasınız, çünki əlinizdən yerə qoya bilməyəcəksiniz. Beş ulduza layiqdir".

*Çikaqo Universitetində "Homer J.Livingston" professoru,*
*"The Why Axis"in müəllifi Con A.List*

"Deyna Saskind başqalarını qəhrəman adlandırır, amma əsl qəhrəman özüdür! O, kar uşaqların eşitməsinə yardım etməyin onların dili öyrənməsi üçün kifayət olmadığını başa düşdükdə, uğurlu pediatrik koxlear implant cərrahı rolundan daha da irəli getdi. Saskind bizi öz maraq dolu, yeni səhifə açan səyahətinə dəvət edir. Uşaqların ilkin bilikləri barədə yol göstərir, onların dil öyrənməsi üçün nə etməli olduğumuzu izah edən, ən əsası da bunu həmişə sevinc və sevgi ilə etməyin yollarını göstərən əsaslı və hədsiz dərəcədə faydalı nümunələr paylaşır".

*Ailələr və iş institutunun prezidenti və*
*"Mind in the Making"in müəllifi Ellen Qalinski*

"Həkim Saskindin işi göstərir ki, övladlarımıza verə biləcəyimiz ən böyük bəxşiş pulsuzdur. Övladlarımıza dünyada üstünlük qazandırmaq üçün pul tələb olunmur, lazım olan sadəcə sözlər imiş. Bunu başa düşmək necə də gözəldir. Saskindin araşdırması həyati əhəmiyyət daşıyır".

*"Doc McStufns"in yaradıcısı və*
*icraçı prodüseri Kris Nii*

Deyna Saskind

# OTUZ MİLYON SÖZ

İngiliscədən tərcümə:
Mahirə Hacıyeva

qanun nəşriyyatı

Dana Suskind

# THIRTY MILLION WORDS

Deyna Saskindin araşdırmalarının nəticəsi olan "Otuz Milyon Söz" təşəbbüsü uşağın inkişafı üçün erkən dillə tanışlığın vacibliyini vurğulayır.

"Otuz Milyon Söz" üç yaşa qədər yüksək gəlirli ailələrin uşaqlarının aşağı gəlirli ailələrin uşaqlarından otuz milyondan daha çox söz eşitdiyini göstərən bir tədqiqatın nəticəsidir. Bu söz boşluğu söz ehtiyatına, İQ-yə və akademik uğura əhəmiyyətli dərəcədə təsir göstərir. Elmi araşdırmalara əsaslanan hər valideyn üçün əvəzsiz bələdçi rolunu oynayacaq bu kitab gələcək nəsillər üçün əsaslı bünövrə formalaşdırmağa kömək edəcək.